Elm və təhsil nazirinin müavini Həsən Həsənli Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Vorvik Universitetinin beynəlxalq əlaqələr üzrə dekan müavini Robin Clark ilə görüşüb.

Görüş çərçivəsində iki qurum arasında ali təhsil sahəsində mövcud əməkdaşlıq, o cümlədən Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) ilə Vorvik Universiteti arasında həyata keçirilən "Bərpa olunan enerji mənbələri" ikili magistr proqramı müzakirə olunub, bu istiqamətdə gələcək əməkdaşlıq perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.